# İqtisadi əməkdaşlıqda müttəfiqlik nümayişi

**Azərbaycanın mühüm tərəfdaşı olan Rusiya ilə əlaqələri hazırda yüksək səviyyədədir, siyasi, iqtisadi, humanitar, hərbi-texniki və s. sahələrdə əməkdaşlığı yeni inkişaf mərhələsindədir. Qarşılıqlı siyasi, sosial-iqtisadi münasibətlər iki ölkənin birgə səyi ilə mühüm tədbirlərin, önəmli layihələrin uğurla reallaşdırılmasına əlverişli imkan yaradır və yüksək göstəricilər əldə edilir.**



Prezident İlham Əliyevin Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin ilə geniş tərkibdə görüşündə də bu barədə ətraflı danışılıb. Dövlətimizin başçısı söhbətinin əvvəlində Prezident Vladimir Putinlə dəfələrlə görüşlərinin ikitərəfli əməkdaşlığa müsbət təsir göstərdiyini, inkişaf dinamikasını sürətləndirdiyini vurğulayıb. Elə indiki görüşdən bir gün əvvəl də Rusiya rəhbəri ilə ikitərəfli gündəliyə aid mühüm məsələlər barədə telefonla danışdığını xatırladıb. "Beləliklə, necə deyərlər, prezidentlər münasibətlərimizin bütün spektrini müəyyən edir. Əlbəttə, bütün müvafiq strukturlar da bu istiqamətdə fəaliyyət göstərir. Biz çox şadıq ki, qarşılıqlı ticarətin həcmi pandemiyadan əvvəlki səviyyəyə çatır və əminəm ki, bu dinamizm qorunub saxlanacaq. Ona görə ki, bu gün, o cümlədən, sizin səfəriniz çərçivəsində müzakirələr qarşılıqlı ticarət potensialını artırmağa şərait yaradacaq", – deyə Prezident İlham Əliyev bildirib.

Söhbət zamanı Azərbaycan–Rusiya arasında yükdaşımaların həcmində inkişaf dinamikasının nəzərə çarpdığı, tranzit yüklərin daşınmasında rekord göstəricilərə nail olunduğu, bu sahədə təqribən 50–60 faiz artım əldə edildiyi diqqətə çatdırılıb. Eyni zamanda, tranzit-logistika infrastrukturu sahəsində ikitərəfli, həmçinin qonşu ölkələr də cəlb edilməklə çoxtərəfli qarşılıqlı əməkdaşlıq potensialının artırılacağı əminliyi qeyd edilib. Bunun təsadüfi olmadığı xatırladılaraq, Rusiya və Azərbaycan tərəfindən uzun illər boyu ölkələrimizdə nəqliyyat-logistika infrastrukturuna fəal surətdə sərmayə qoyulduğu qeyd edilib.

Görüşdə xüsusi maraq doğuran məsələlərdən biri nəqliyyat dəhlizlərinin, ilk növbədə, Şimal–Cənub dəhlizinin potensialının artırılması ilə bağlı olub. Bunun üçün 2030-cu ilə qədər bu dəhlizlə daşımaların həcminin artırılaraq ildə 15 milyon tona çatdırılmasının qarşıya mühüm vəzifə kimi qoyulduğu vurğulanıb.

**(ardı 5-ci səhifədə)**

# İqtisadi əməkdaşlıqda müttəfiqlik nümayişi

(əvvəli 1-ci səhifədə)

Bakıda Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun və Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustinin noyabrın 17-də keçirilən görüşündə də bu barədə ətraflı danışılıb. Azərbaycan-Rusiya münasibətlərinin inkişafının nəticəsi olaraq, bir sıra ikitərəfli sənədlər imzalanıb. Görüşdə bu sənədlərin iqtisadi-ticari, nəqliyyat və səhiyyə sahələrində ikitərəfli əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açacağı əminliyi ifadə olunub. Eyni zamanda, iqtisadi əlaqələrin davamlı inkişaf etməsi xüsusi vurğulanıb. Buna misal olaraq, cari ilin 10 ayı ərzində qarşılıqlı ticarətin həcminin təqribən 20 faiz artaraq, 3 milyard dollara yaxın olması diqqətə çatdırılıb. Bu dövrdə Azərbaycanın MDB ölkələri arasında ən çox məhsul ixrac etdiyi ölkə Rusiya olub, respublikamız bu dövlətə 719 milyon ABŞ dolları dəyərində mal göndərib.

Azərbaycan-Rusiya arasında investisiya əməkdaşlığının daha da inkişaf etdirilməsi zəruriliyi diqqətə çatdırılıb. İki ölkənin işgüzar dairələri arasında birbaşa əlaqələrin yaradılmasının, əməkdaşlığın inkişafında Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuralarının fəal rolunun müsbət rol oynayacağı vurğulanıb. Nəqliyyat-tranzit sahəsində əməkdaşlığın davamlı inkişafının isə məmnunluq doğurduğu, cari ilin əvvəlindən bu dövlətlər arasında yükdaşımaların ümumi həcminin təqribən 22 faiz artmasının qeyd edilən sahənin tərəqqisinin bariz ifadəsi kimi diqqət çəkdiyi bildirilib. Eyni zamanda, respublikamızdan keçən keçən nəqliyyat dəhlizləri vasitəsilə Rusiya yüklərinin tranzit daşınmasının əhəmiyyətli dərəcədə yüksəlməsi, 2022-ci ilin yanvar-oktyabr aylarında bu artımın 98 faizə çatması müsbət hal kimi xatırladılıb.

Görüşdə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin prioritet əhəmiyyət daşıdığından da bəhs olunub. Yeri gəlmişkən, bir daha xatırladaq ki, Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla bərabər beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır.

Ötən illər ərzində "Şimal-Cənub" kimi iri nəqliyyat dəhlizinin reallaşdırılması istiqamətində nəhəng infrastruktur layihəsi gerçəkləşdirilib. Dəhlizin infrastrukturunun daşımaların həcminin gözlənilən artıma cavab verməsi üçün onun modernləşdirilməsi, gücünün artırılması diqqətdə saxlanılıb.

Bu məsələ ilə əlaqədar hazırda Rusiya-Azərbaycan sərhədində buraxılış məntəqələri müasirləşdirilir. Məsələn, Yaraq-Qazmalar, Noviy Filya, Tahirkənd-Qazmalar və Qarauzek avtomobil buraxılış məntəqələri modernləşdirilir, onların yükburaxma qabiliyyəti artırılır. "Samur-2" stansiyası əsasında Dərbənd dəmir yolu buraxılış məntəqəsi də inkişaf etdirilir.

Azərbaycanın tərəfdaşları tərəfindən ötən müddətdə bu nəqliyyat dəhlizindən səmərəli istifadə edilib. Respublikamızın ərazisindən keçən yolların çoxşaxəli olması ölkəmizin imkanlarını böyük dərəcədə artırıb. Pandemiya dövründə bütövlükdə bütün dünyada iqtisadiyyatın tənəzzülə uğramasına baxmayaraq, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə daşınan yüklərin həcmi təxminən 20 faiz yüksəlib.

Beləliklə, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin mərkəzində yerləşən Azərbaycan hazırda regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilir. Hazırda respublika ərazisində müxtəlif dəhlizlər üzrə yükdaşımalarda artım müşahidə edilir. Cari ilin səkkiz ayında nəqliyyat dəhlizlər üzrə tranzit daşımaların həcmi 47 faizdən çox artması da bunun bariz ifadəsidir. Daşınma həcmlərinin artması ilə bağlı hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ikinci mərhələsinin layihələndirmə işləri aparılır. Limanının ikinci mərhələsi yekunlaşdıqdan sonra yükaşırma imkanlarının 25 milyon tona çatdırılacağı gözlənilir.

Bakıda Baş nazirlər Əli Əsədovun və Mixail Mişustinin iştirakı ilə keçirilən 11-ci Azərbaycan-Rusiya regionlararası forumu çərçivəsində də iki ölkənin iqtisadi, nəqliyyat, aqrar-sənaye kimi mühüm sahələrdə əməkdaşlığa dair ətraflı müzakirələr aparılıb, kiçik və orta sahibkarlıq sahəsində gələcək qarşılıqlı fəaliyyət imkanları nəzərdən keçirilib.

Sonda xatırladaq ki, Azərbaycanla Rusiya arasında qarşılıqlı fəaliyyət barədə Bəyannamə imzalanması iki ölkə arasında müttəfiqlik xarakterini daha da dərinləşdirib, iqtisadi-ticari əməkdaşlığın gündəliyini xeyli genişləndirib.

Azərbaycanın Rusiya Federasiyasının təqribən 80 subyekti ilə sıx əlaqə saxlaması da bu fikrin bariz ifadəsidir. Yeri gəlmişkən, Azərbaycan hazırda qonşu ölkə ilə 7 yol xəritəsi üzrə fəal iş aparır.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**